# Xalqın zəngin təfəkkürünü, qədimliyini özündə yaşadan onun ana dilidir

Səfəvilər dövlətinin banilərindən biri, XVI əsrdə vahid Azərbaycan dövlətini quran dahi Azərbaycan şairi, dövlət xadimi Şah İsmayıl Xətai Azərbaycan dilini dövlət dili elan edərək demişdir: "Ey türk oğulları! Babalarımızdan bizə üç şey yadigar qalmışdır: dilimiz, torpağımız, qeyrətimiz. Vətənin bir ovuc torpağını dünyanın var-dövlətinə, dilinin bir sözünü ləl-cəvahiratına dəyişməyin, onları qoruyun və sonrakı nəsillərə çatdırın... Ana dilini dövlət dili elan etdim:

*Nəfəsi əhli-dilin gövhəri-candır bilənə,*
*Nitqimiz qüdrəti-hər, ruhi-rəvandır bilənə".*

Xətainin müasiri olan Füzuli məhz bu fərmandan sonra öz şirin qəzəllərini, "Leyli və Məcnun" dastanını Azərbaycan dilində yazıb yaratdı:

*"Məni candan usandırdı, cəfadan yar usanmazmı,*
*Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?*
*Qamu-bimarinə canan, dəvayi-dərd edər ehsan*
*Neçin qılmaz mənə dərman, məni bimar sanmazmı?"*

Əsrlərlə bu sözlər öz təsirini, öz qüdrətini itirmədi. Əksinə, dilimizin təsir gücü ilə Füzuli qüdrətini daha dərindən hiss etdirdi bizə.

Ana dilini yaşadan və inkişaf etdirən onun mənsub olduğu xalqdır. Xalqın, millətin varlığını müəyyənləşdirən,onu başqalarından fərqləndirən mühüm amillərdən biri və ən başlıcası isə onun dilidir. Əsrlərin sınağından çıxaraq daş kitabələrdən üzü bu yana uzun, çətin və şərəfli yol keçib, Dədə Qorqud qopuzundan, Koroğlu sazından süzülüb gələn doğma dilimiz həzin ana laylası ilə canımıza, qanımıza hopub. Füzulinin, Nəsiminin, Şah İsmayılın sözündə, şeirinin avazında qanad açan, ana südü kimi təmiz, dağ çiçəyi kimi təravətli ana dilimiz şifahi xalq ədəbiyyatı nümunələri olan laylalar, bayatılar, qoşmalarla uzun, enişli-yoxuşlu yol gəlib bu günümüzə qədər.

Ana dili hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən güclü və mühüm vasitədir. Xalqımız tarix boyu yadellilərin təzyiqlərinə məruz qalmış, məhv olmaq təhlükəsi ilə üzləşmiş, doğma dilimiz zamanın sərt sınaqlarından çıxmışdır. Lakin bu xalq əsrlər boyu öz ana dilini qoruyub saxlaya bilmişdir. Təkcə XX əsrdə əlifbamız sovet imperiyasının əsarəti altında düz üç dəfə dəyişdirilmişdir. Sovet hökuməti 71 il ərzində bununla xalqımızı öz soykökündən qoparmağa, onun milli, mədəni sərvətlərini məhv etməyə çalışmışdır. Ziyalılarımız kimi, dilimiz də repressiyaya məruz qalmışdır. Ana dilimizi sıxışdıraraq rus dilini diktə etməyə çalışmışlar. Azərbaycan dili şimallı-cənublu azərbaycanlıların ana dili olduğu üçün şair və yazıçılarımız xalqın bütövlüyünü arzuladıqları kimi, dilimizin də bütövlüyünü arzulamışlar. Xəlil Rza deyirdi:

"... Kim qoruya bilməyirsə, öz yurdunu, yuvasını,
Udmasın yurd havasını.
Kim qorumur öz dilini,
İtsin mənim gözümdən qoy ilim-ilim."

Dövlətçilik tarixinin şanlı səhifəsi, millətin özünütəsdiqi onun dilinin dövlət statusu qazanmasındadır. Bu status millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və onu qorumaq qüdrətinin və dilinin zənginliyinin sübutudur. "Mən fəxr edirəm ki, azərbaycanlıyam" deyən, hər zaman öz ana dilində danışmağı hamıya tövsiyə edən ümummilli lider Heydər Əliyev hələ sovetlər dönəmində Azərbaycan dilinin dövlət dili statusu qazanmasına nail olmuşdur. Yalnız ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi illərdə millətimiz üçün böyük faciə doğura biləcək mənfi halların qarşısı alındı. O cümlədən doğma ana dilimiz də öz müstəqilliyinə qovuşdu. Vətənimizin başı üstündə bir daha müstəqillik günəşi doğduqdan sonra ulu öndərin rəhbərliyi ilə "Azərbaycan dili haqqında qanun" hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində öz əksini tapdı.

2001-ci ilin avqust ayında ümummilli lider Heydər Əliyevin Fərmanı ilə rəsmi olaraq latın əlifbasına keçid başlandı. "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun qüvvəyə mindi. Bu müdrik addım bizi bütün türk dünyası ilə yaxınlaşdırdı. Əbədiyaşar liderimiz deyirdi: "Azərbaycan dilinin dövlət dili kimi həyatımızın bütün sahələrində yaşaması və inkişafına hərtərəfli şərait yaradılmış, onun zənginləşməsi və dünya dilləri arasında layiqli mövqe tutması üçün daha geniş perspektivlər açılmışdır... Hansı ölkədə yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı öz ana dilini, dinini, milli ənənələrini heç zaman unutmamalıdır".

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika.- 20 fevral.- 2022- ci il.- S. 5.